AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
BAKI DÖVLƏT UNİVERSİTETİ

*Əlyazması hüququnda*

**GÜLARA ƏLVAN QIZI ƏLİYEVA**

# XIX-XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ ŞİMALİ AZƏRBAYCANDA RUSDİLLİ TƏHSİL

**İxtisas: 5503.02 – Vətən tarixi**

**Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

# A V T O R E F E R A T I

**BAKI-2014**

**Dissertasiya Gəncə Dövlət Universitetinin "Azərbaycan tarixi" kafedrasında yerinə yetirilmişdir.**

**Elmi rəhbər:**
**Tarix üzrə elmlər doktoru, professor E.B.MURADƏLİYEVA**

**Rəsmi opponentlər:**
**tarix üzrə elmlər doktoru, professor Ə.İ.MUXTAROVA**
**tarix üzrə fəlsəfə doktoru H.N.HƏSƏNOV**

**Aparıcı təşkilat: Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Azərbaycan tarixi" kafedrası**

**Müdafiə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının 22 fevral 2013-cü il tarixli 95 saylı əmri ilə Bakı Dövlət Universiteninin nəzdində yaradılmış tarix elmləri doktoru və tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.02.161 Dissertasiya Şurasının "_22____"__11_2014-cü il tarixli iclasında, saat____$^{00}$ da olacaqdır.**

**Ünvan: Az 1148, Bakı şəhəri, Z.Xəlilov küçəsi, 23.**

**Dissertasiya ilə Bakı Dövlət Universitetinin Elmi kitabxanasında tanış olmaq olar.**

**Avtoreferat "____"______________2014-cü ildə göndərilmişdir**

**Dissertasiya Şurasının elmi katibi:**
**tarix üzrə elmlər doktoru, prof. S.Y.SÜLEYMANOVA**

## I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Azərbaycanın şimal torpaqlarının Rusiya imperiyası tərəfindən işğal edilməsindən sonra yaradılan ayrı-ayrı təhsil müəssisələrinin fəaliyyəti, çar höküməti tərəfindən yeridilən təhsil siyasəti, xalq maarifinin ümumi vəziyyəti ilə bağlı çoxlu tədqiqat əsərləri yazılsa da, bütövlükdə XIX əsrdə və XX əsrin əvvəllərində, o cümlədən Azərbaycan Xalq Cümhuriyyəti dövründə rusdilli məktəblərin tarixi indiyədək xüsusi tədqiqat obyekti olmamışdır. Şimali Azərbaycanda Rusiya imperiyası hakimiyyət nümayəndələrinin təhsillə bağlı atdıqları addımlar hələ bu imperiyanın mövcüdluğu dövründə araşdırılmağa başlanmış, sovet hakimiyyəti dövründə isə bu məsələyə diqqət bir qədər artırılmış, nisbətən daha geniş öyrənilmişdir. Lakin Rusiya imperiyası dövründə xalq maarifinin vəziyyəti, bu sahədə yürüdülmüş siyasət hakim kommunist ideologiyasının təsiri nəticəsində heç də düzgün qiymətləndirilməmiş, tarixi faktlar çox hallarda saxtalaşdırılmışdır.

Doğrudur, sovet dövründə təhsillə bağlı yazılan elmi əsərlərdə, müxtəlif monoqrafiyalarda rusdilli təhsilin, bu sahədə çar hökumətinin müstəmləkəçilik siyasətinin bu və ya digər aspektlərinə toxunulsa da, hakim kommunist ideologiyasının təsirindən kənara çıxmaq mümkün olmamışdı. Rusiya işğalının “könüllü birləşdirilmə” kimi qələmə verildiyi belə əsərlərdə “böyuk qardaş”ın mədəni təsirinin şişirdilməsi tendensiyası özünü müxtəlif cəhətlərdən biruzə vermişdir: Rusiyanın, rus mədəniyyətinin Azərbaycan xalqının mədəni inkişafına müsbət təkan verməsinin qabardılması, dolayı yolla Rusiyanın müstəmləkəçilik siyasətinə bəraət qazandırılmasına xidmət etmişdir. Eyni zamanda, Azərbaycan milli burjuaziyasının xalqımızın maarifləndirilməsi yolunda atdığı addımların, demokratik ziyalılarımızın bu istiqamətdə apardığı gərgin mübarizənin üzərindən ya sükutla keçilmiş, ya da onların rolu kiçildilmişdir. Bütövlükdə isə, rusdilli təhsil, onun Azərbaycanın mədəni inkişafında rolu düzgün şəkildə, obyektiv qiymətləndirilməmişdir.

Azərbaycan XX əsrin sonlarında dövlət müstəqilliyini bərpa etdikdən sonra yazılmış tədqiqat əsərlərində Rusiya imperiyasının Şimali Azərbaycanda yürütdüyü təhsil siyasəti obyektiv araşdırılmağa başlanılmışdır. Lakin yuxarıda qeyd edildiyi kimi, rusdilli təhsil bəhs edilən xronoloji dövr çərçivəsində ayrıca tədqiqat obyektinə çevrilməmişdir. Bu baxımdan, rusdilli təhsil mövzusu, rusdilli təhsilin xalqımızın sosial-mədəni tarixində oynadığı rolun bütövlükdə və tam şəkildə araşdırılması böyük elmi aktuallığa malikdir.

Azərbaycan XX əsrin 90-cı illərindən etibarən, vaxtilə müstəmləkəsi olduğu Rusiya ilə artıq bərabərhüquqlu münasibətlər qurmağa başlamışdır. Xüsusilə ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlməsindən sonra Azərbaycan-Rusiya əlaqələri cəmiyyətin həyatının bütün sahələrində olduğu

kimi, təhsil və mədəniyyətin digər sahələrində də qarşılıqlı faydalı olmaqla yeni mərhələyə qədəm qoymuşdur. Rusiya Federasiyası Qarabağ məsələsində ikili siyasətin hələ də davam etdirməsinə baxmayaraq, Azərbaycanın artan beynəlxalq nüfuzu, enerji və iqtisadi potensialı, geopolitik və geostrateji mövqeyi səbəbindən digər sahələrdə, xüsusən də mədəni münasibətlər sahəsində bərabərhüquqlu əməkdaşlığı inkişaf etdirməyə üstünlük vermişdir. Dövlət başçılarının qarşılıqlı səfərləri, dövlətlərarası müqavilələrin imzalanması buna əyani misaldır.

1996-cı ilin yazında Rusiyada Azərbaycan günləri, 1997-ci ilin aprelində isə Azərbaycanda Rusiya mədəniyyəti günləri keçirilmişdir. Həmin ilin iyun ayında Bakıda Moskva şəhərinin 850 illiyinə həsr edilmiş Moskva mədəniyyəti günləri keçirilmişdir. 1999-cu ilin aprel ayının sonlarında Moskvada Azərbaycan mədəniyyəti günləri, həmin il 26 iyun-1 iyul tarixində Azərbaycanda növbəti Rusiya mədəniyyəti günləri keçirilmişdir.

Bu ənənə XXI əsrin ilk onilliklərində uğurla davam etdirilməkdədir və Rusiya-Azərbaycan mədəni əlaqələrinin inkişaf etdirliməsində mühüm rol oynayır. Dövlətlər arasında imzalanan müqavilələr bu prosesin uğurlu davamıdır. 2004-cü ildə AR prezidenti İlham Əliyevin Moskvaya rəsmi səfəri zamanı imzalanmış Moskva Bəyannaməsi humanitar əlaqələr sahəsində xüsusi əhəmiyyət kəsb edən sənəddir. Bu sənəddə AR və RF arasında təhsil və digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi xüsusi vurğulanmışdır.

Azərbaycan məktəblərində rus dilinin tədrisinin davam etdirilməsi, Rusiyada Azərbaycan diasporunun təşkilatlanması, Azərbaycan dilində həftəsonu məktəblərinin açılması, Xocalı soyqırımı ilə əlaqədar silsilə tədbirlərin keçirilməsi mədəni və ictimai səviyyədə qarşılıqlı faydalı tərəfdaşlığın inkişafına tutarlı sübutdur. Sovet dövründə Azərbaycanda Rus dili və Ədəbiyyatı İnstitutu kimi yaradılmış ali məktəb, müstəqillik illərində Bakı Slavyan Universitetinə çevrilərək fəaliyyətini daha da genişləndirmişdir. Hazırda onun əsas tədqiqat mərkəzlərindən biri də "Rusiya mədəni-maarif mərkəzi" – Moskva auditoriyasıdır. Moskva Dövlət Linqvistika Universitetində BSU-nun professoru B.Musayevanın rəhbərlik etdiyi Azərbaycan dilinin Tədqiqi Mərkəzi fəaəliyyət göstərir. Bütün bu amillər Azərbaycanda rusdilli təhsilin tarixinin tədqiqinə marağı daha da artırmışdır.

**Tədqiqatın obyekti.** Dissertasiyanın tədqiqat obyekti XIX-XX əsrin əvvəllərində Şimali Azərbaycanda rusdilli təhsiltarixinin hərtərəfli və bütöv bir tam halında araşdırılmasıdır.

**Dissertasiyanın xronoloji çərçivəsi.** Şimali Azərbaycanın Rusiya tərəfindən işğalından Şimali Azərbaycanda sovet quruluşu tətbiq olunana qədərki dövr dissertasiyanın xronoloji çərçivəsini təşkil edir.

**Mövzunun öyrənilmə səviyyəsi.** Azərbaycan dövlət müstəqilliyi qazandıqdan sonra, humanitar elmlərdə, o cümlədən Vətən tarixinin öyrənilməsində yeni baxışlar və yeni tədqiqat əsərləri meydana gəlməyə başladı. Xüsusən sovet dövründə qadağan olunmuş, üstündən keçilmiş və ya sovet prinsiplərinə, rus tarixşünaslığının mənafeyinə uyğun saxtalaşdırılmış bir çox sahələr yenidən, milli baxış və milli ideodologiya tələbləri əsas götürülməklə tədqiq edilməyə başlandı. Təqdim olunan dissertasiya işində də tədqiqat mövzusu məhz milli dövlətçilik nöqteyi-nəzərindən araşdırılmış, bu məqsədlə müxtəlif dövrlərdə nəşr olunmuş tarixi əsərlərdən, sənəd və materiallardan həmin dövrdə baş vermiş sosial-siyasi proseslərin, mədəniyyət hadisələrinin obyektiv şərhi, izahı və öyrənilməsi üçün istifadə edilmişdir.

Ə.Tağıyevin XIX əsrin axırları – XX əsrin əvvəllərində Azərbaycanda xalq maarifinin inkişafına həsr edilmiş əsərlərində[1] çar hökumətinin Şimali Azərbaycanda yürütdüyü müstəmləkəçi təhsil siyasətinə toxunulmuşdur. Əsərdə yerli əhalinin məktəb və mədrəsələrə, eləcə də üsuli-cədid məktəblərinə münasibəti işıqlandırılmış, AXC-nin yeritdiyi təhsil siyasəti dövrün reallıqları nəzərə alınmadan kəskin tənqid olunmuşdur. AXC-nin məktəblərdə rus tarixi, ədəbiyyatı və coğrafiyası fənlərinin ləğv edilməsi ilə bağlı qərarı "rus xalqına nifrət oyatmaq", "millətçilik" kimi qələmə verilmişdir.

XIX əsrdə Şimali Azərbaycanda təhsil məsələlərinə həsr olunmuş çoxsaylı tədqiqatların müəllifi olan H.M.Əhmədovun əsərlərində[2] Rusiya işğalından sonrakı dövrdə xalq maarifi tarixinin müxtəlif məsələlərinə toxunulmuşdur. Çarizmin müstəmləkəçi təhsil siyasəti, xalq maarifinin vəziyyəti və s. bu kimi məsələlər müəllifin müxtəlif zamanlarda nəşr edilmiş tədqiqatlarında geniş şəkildə şərh olunmuşdur. Bu baxımdan, Azərbaycan xalq maarifinin, təhsil tarixinin tədqiqi və öyrənilməsində H.Əhmədovun böyük xidmətləri vardır.

Ə.Ə.Əbdülovün "XX əsrin əvvəllərində Azərbaycanda orta təhsilin inkişafı (1900-1920-ci illər)"adlı dissertasiyasında[3] xalqın maariflənməsində gimnaziya və real məktəblərin rolu, S.S.Məmmədovun "Azərbaycanda qadın

---

[1] Tağıyev Ə. Azərbaycanda pedaqoji fikrin inkişafı tarixindən (XIX əsrin axırları-XX əsrin əvvəlləri Bakı, 1961; Azərbaycanda məktəb tarixi (XIX əsrin sonu-XX əsrin əvvəlləri). Bakı, 1993

[2] Əhmədov H. XIX əsr Azərbaycan məktəbi, Bakı, 1985; Seçilmiş pedaqoji əsərləri, I c., Bakı, 2001; Azərbaycan məktəb və pedaqoji fikir tarixi (dərs vəsaiti). I hissə, Bakı, 2001; К истории "русско-татарских" школ в Азербайджане. // Советская педагогика, 1969, №9.

[3] Əbdülov Ə.Ə. XX əsrin əvvəllərində Azərbaycanda orta təhsilin inkişafı. Namiz. diss. Bakı, 2007

təhsili və Azərbaycanın tərəqqipərvər qadınlarının maarifçilik fəaliyyəti (XIX əsrin II yarısı-1920-ci ilə qədər)" adlı dissertasiyasında[1] çar hakimiyyəti dövründə qadın təhsilinin vəziyyəti araşdırılmışdır.

Şimali Azərbaycanda fəaliyyət göstərən bir sıra məktəblərin yubileylərinin keçirilməsi həmin məktəblər haqqında əsərlərin işıq üzü görməsi ilə nəticələndi. Ə.Ağayev, K.Ağayev, H.Əhmədov, S.Əfəndiyev, S.Həmidov, S.Şükürov tərəfindən yazılmış əsərlər[2] təhsil tarixinin öyrənilməsində özünəməxsus yol açmış oldu. Bu əsərlər rusdilli məktəblərin ümumi təhsil sistemindəki yerini öyrənmək baxımından böyük əhəmiyyətə malikdirlər. Müəlliflər bəhs etdikləri məktəblərin regionun mədəni həyatında mühüm rol oynamasını xüsusi qeyd etmişlər.

Ə.Nəzərlinin "Azərbaycan Respublikasında xalq maarifi (1918-1920-ci illər)" adlı monoqrafiyası[3] AXC dövründə yürüdülən təhsil siyasətindən bəhs etmişdir. AXC hökumətinin təhsil sahəsində atdığı uğurlu addımlar, dövrün ağır ictimai-iqtisadi, sosial-siyasi mənzərəsi fonunda xalq maarifi sahəsində keçirilən islahatlar əsərdə öz əksini tapmışdır.

Ə.Adıgözəlov Qərbi Azərbaycanda milli məktəblərimizin yaranması və inkişafı tarixindən bəhs edən əsərində[4] Qərbi Azərbaycan torpaqlarında yaşayan əhalinin təhsil problemi, çar Rusiyası, AXC və sovet dövründə bu sahədəki vəziyyəti tədqiq etmişdir. Müəllif Qərbi Azərbaycandakı rusdilli məktəblərin də fəaliyyətindən bəhs edərək, azərbaycanlı əhalinin təhsilə yiyələnməsində bu təhsil ocaqlarının rolunu qeyd etmişdir. Z.Məhərrəmov da İrəvan bölgəsində məktəb işinə böyük monoqrafiya[5] həsr etmişdir. Əsərdə Qərbi Azərbaycanda milli və rusdilli məktəblərin yaranması, məktəb işinin ədəbi-mədəni mühitə təsiri geniş faktik material əsasında araşdırılmışdır.

E.R.Vahabova "Azərbaycan xalq maarifinin məsələləri "Kaspi" qəzetinin səhifələrində" adlı dissertasiya işində Azərbaycan mədəniyyətinin, təhsi-

---

[1] Məmmədov S.S. Azərbaycanda qadın təhsili və Azərbaycanın tərəqqipərvər qadınlarının maarifçilik fəaliyyəti (XIX əsrin II yarısı-1920-ci ilə qədər). Dokt. diss. Bakı, 1996

[2] Ağayev Ə. 150 yaşlı Şuşa məktəbi. Bakı,1983; Ağayev K. 100 yaşlı məktəb. Bakı, 1976; Əhmədov H. Əfəndiyev S. 150 yaşlı yubilyar məktəb və Şəkidə xalq maarifinin tərəqqisi. Bakı, 1983; Əhmədov H., Həmidov S. 100 yaşlı Qarğabazar məktəbi. Bakı, 1983; Şükürov S. Gəncə məktəblərinin tarixindən. Bakı, 1990.

[3] Nəzərli Ə. Azərbaycan Respublikasında xalq maarifi (1918-1920-ci illər). Bakı, 2008

[4] Adıgözəlov Ə. Qərbi Azərbaycandakı milli məktəblərimizin tarixindən. Bakı, 2003

[5] Məhərrəmov Z. İrəvanda məktəbdarlıq və maarifçilik (1800-1920-ci illərdə ədəbi-mədəni mühit). Bakı, Nurlan, 2010

lin müxtəlif sahələrini "Kaspi" qəzetində dərc olunan materiallar əsasında tədqiq etmişdir[1]. Müəllif rusdilli məktəblərə aid faktlara xüsusi yer vermişdir.

H.Əhmədovun "Azərbaycanda xeyriyyə cəmiyyətlərinin maarifçilik fəaliyyəti" adlı əsərində[2] Şimali Azərbaycanda XX əsrin əvvəllərində meydana gələn xeyriyyə cəmiyyətlərinin maarifçilik fəaliyyətindən, bu cəmiyyətlərin nəzdində yaradılan məktəblərdən bəhs olunmuşdur. Şimali Azərbaycanda xeyriyyə cəmiyyətlərinin yaratdığı məktəblərin xalq maarifinin inkişafındakı xidmətləri, mədəni fəaliyyəti haqqında C.Cavadovun[3] və M.Babaşovun[4] əsərlərində də maraqlı faktlar qeyd edilmişdir.

F.Seyidov "Qori seminariyası və onun məzunları" adlı əsərində[5] Qori müəllimlər seminariyasının və onun Azərbaycan şöbəsinin açılması, fəaliyyəti, məzunları və bu qəbildən olan digər məsələləri araşdırmışdır. Qori Seminariyasının Azərbaycan şöbəsinin regionda rusdilli məktəblər şəbəkəsinin genişlənməsindəki böyük rolu haqqında Ş.Nəzərlinin əsərində[6] də bir sıra önəmli faktlar əks olunmuşdur.

N.Tahirzadənin "XIX əsrin 40-cı illərinin sonu, 50-ci illərində Azərbaycanda müsəlman məktəbləri" adlı əsərində[7] rus çarizmi tərəfindən yaradılan dövlət müsəlman məktəbləri haqqında statistik məlumatlar əks olunmuşdur. D.Seyidzadə Rusiya Dövlət Dumasındakı azərbaycanlı deputatların fəaliyyətindən bəhs edən əsərində[8] müsəlman deputatların təhsil sahəsindəki fəaliyyətləri haqqında olan maraqlı faktları araşdırmışdır.

F.Cabbarovun 2001-ci də çap etdirdiyi "H.Z.Tağıyevin qız məktəbinin tarixindən"adlı əsərində[9] görkəmli xeyriyyəçi H.Z.Tağıyevin təsis etdiyi

---

[1] Вагабова Э.Вопросы народного образования в Азербайджане на страницах газеты "Каспий" 1893-1917 Канд. дисс. Баку, 2000

[2] Əhmədov H. Azərbaycanda xeyriyyə cəmiyyətlərinin maarifçilik fəaliyyəti Bakı, 1997

[3] Cavadov C. Azərbaycanda xeyriyyəçilik hərəkatı (XIX əsrin sonu və XX əsrdə) Bakı, 1999

[4] Babaşov M. Milli təhsilimizin inkişafında xeyriyyəçi-maarifpərvər qurumların rolu. // Qafqaz Universitetinin quruluşunun II ildönümünə həsr olunmuş elmi-metodik konfransın materialları, Bakı, 1995

[5] Seyidov F. Qori seminariyası və onun məzunları. Bakı, 1988

[6] Nəzərli Ş. Qoridən gələn qatar. Bakı, 1998

[7] Таирзаде Н. О мусульманских училищах в Азербайджане в конце 40-х и 50-е XIX в.// Материалы по истории Азербайджана. Труды музея истории Азербайджана, т.5, Баку, 1962

[8] Сеидзаде Д. Азербайджанские депутаты в Государственной Думе России. Баку, 1991

[9] Cabbarov F. H.Z.Tağıyevin qız məktəbinin tarixindən. Bakı, 2001

müsəlman dünyasında ilk dünyəvi qız məktəbinin yaranma tarixinə qısa nəzər yetirilmişdir. Əsərdə Azərbaycan Respublikası Dövlət Tarix Arxivinin, Azərbaycan Respublikası S.Mümtaz adına Dövlət Ədəbiyyat və İncəsənət Arxivinin, Milli Azərbaycan Tarixi Muzeyinin ayrı-ayrı fondlarının, Milli Azərbaycan Tarixi Muzeyinin Sənədli mənbələr fondunun və Azərbaycan Respublikası Təhsil Nazirliyi Təhsil Muzeyi materiallarından istifadə edilmiş, o dövrün mətbuat yazıları, həmin məktəb məzunlarının xatirələri, həmçinin çoxlu fotoşəkillər toplanmışdır.

A.Atakişiyevin "Bakı Dövlət Universitetinin tarixi" və A.Məhərrəmovun "Bakı Dövlət Universiteti" adlı əsərləri[1] Bakı Dövlət Universitetinin təsisi və fəaliyyəti tarixinə həsr olunmuşdur. Bu əsərlərdə AXC dövründə ilk ali məktəbin yaradılması prosesi araşdırılmışdır.

A.Milmanın "XIX əsr - XX əsrin əvvəllərində Azərbaycanın siyasi quruluşu" adlı əsərində[2] Cənubi Qafqazda çarizmin həyata keçirdiyi inzibati ərazi dəyişiklikləri və onun təhsil siyasətinə təsiri, təhsilin idarəsi ilə bağlı strukturların yaradılması məsələlərinə toxunulmuşdur. Bundan əlavə, tədqiqat işində F.Köçərlinin, H.Hüseynovun, M.İsmayılovun, S.Süleymanovanın, Ə.Mirəhmədovun, B.Nəbiyevin, Q.Əliyevin, X.Məmmədovun, M.Mərdanovun, A.Seyidzadənin və digər müəlliflərin əsərlərində[3] bəhs edilən dövrdə Azərbaycanın xalq maarifinin müxtəlif sahələri haqqında maraqlı faktlar əks olunmuş və Azərbaycanın bir sıra qabaqcıl ziyalılarının bu sahədəki fəaliyyətləri işıqlandırılmışdır.

**Dissertasiyanın mənbə bazası.** Tədqiqatın mənbə bazasını ilk növbədə Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, Gürcüstan Respublikası Dövlət Tarix Arxivi və Rusiya Federasiyasının Sankt-Peterburq şəhərindəki Rusiya Dövlət Tarix Arxivinin fondlarında saxlanılan və xeyli hissəsi elmi dövriyyəyə ilk dəfə daxil edilən sənəd və materiallar təşkil edir. Bu

---

[1] Atakişiyev A. Bakı Dövlət Universitetinin tarixi. Bakı, 1991; Məhərrəmov A. Bakı Dövlət Universiteti. Bakı, 2009

[2] Мильман А. Политический строй Азербайджана в XIX – начале XX веков. Баку, 1966

[3] Köçərli F. Seçilmiş əsərləri. Bakı, 1963; Гусейнов Г. Из истории общественной и философской мысли в Азербайджане XIX века. Баку, 1949; İsmayılov M.Ə. XX əsrin əvvəllərində Azərbaycanın kənd təsərrüfatı. Bakı, 1960; Süleymanova S. Y. Azərbaycanda ictimai-siyasi hərəkat (XIX yüzilliyin sonu – XX yüzilliyin əvvəlləri). Bakı, 1999; Mirəhmədov Ə. Azərbaycan ədəbiyyatına dair tədqiqlər. Bakı, 1983; Nəbiyev B. Firidun bəy Köçərli. Bakı, 1984; Əliyev Q.Ə. Azərbaycan nəqliyyatı və iqtisadiyyatı (XIX əsr - XX əsrin ilk onillikləri). Bakı, 2001; Məmmədov X. Sultan Məcid Qənizadə. Bakı, 1983; Mərdanov M. Azərbaycan təhsili dünən, bu gün, sabah. Bakı, 2006; Сеидзаде А.А. Мирза Шафи Вазех, Баку, 1969

materiallar içərisində bütövlükdə Cənubi Qafqazın, o cümlədən Şimali Azərbaycanın təhsil sisteminin, onun ayrı-ayrı strukturlarının yaradılması haqqında rəsmi yazışmalar, Cənubi Qafqaz Təhsil Dairəsinin hesabatları, statistik məlumatlar xüsusilə qiymətlidir. Bu sənəd və materiallar təhsil siyasətinin həyata keçirilməsi zamanı çarizmin ruslaşdırma niyyətini çılpaqlığı ilə üzə çıxarmağa imkan vermişdir. Arxiv fondlarında saxlanılan materialların çox böyük üstünlüyü ondan ibarətdir ki, onların əksəriyyəti bilavasitə hadisələrin iştirakçılarının və ya şahidlərinin qələmindən çıxmışdır. Eyni zamanda, həmin sənəd və materialların, demək olar ki, hamısı rus müstəmləkəçi hakim dairələrinin mənafelərinə xidmət edənlərin qələminin məhsuludur ki, bu da həmin mənbələrə tənqidi yanaşmanı zəruri etmişdir. Tədqiqat işinin yazılmasında Azərbaycan Respublikası Dövlət Tarix Arxivinin fondlarından 71, Gürcüstan Respublikası Dövlət Tarix Arxivinin 14, Rusiya Dövlət Tarix Arxivinin isə 36 işindən istifadə olunmuşdur.

Qaynaqların ikinci böyük qrupuna nəşr olunmuş sənəd və materiallar aiddir. Bu materialların içərisində görkəmli şərqşünas A.Berjenin redaktorluğu altında çap olunmuş "Qafqaz Arxeoqrafiya Komissiyasının topladığı aktlar" xüsusi yer tutur. Nəfis tərtibatlı 12 cilddən ibarət olan bu "Aktlar"da orta əsrlərdən XIX yüzilliyin 60-cı illərinə kimi Qafqazda, o cümlədən Şimali Azərbaycanda baş vermiş hadisələri özündə əks etdirən on minlərlə sənəd toplanılmışdır[1]. Həmin sənəd və materialların siyasi məqsədli "redaktorların" qələmi ilə korrektə edilməməsi onların etibarlılığına təminat verir. Elə ona görədir ki, Qafqazdakı müstəmləkə siyasətinin icraçılarının Rusiya hakim dairələrinin göstərişləri əsasında Şimali Azərbaycanda yeritdiyi təhsil siyasətinin istiqamətlərini özündə ehtiva edən məlumatlar "Qafqaz Arxeoqrafiya Komissiyasının topladığı aktlar"da öz əksini tapmışdır.

"XIX əsrin 20-60-cı illərində rus çarizminin Azərbaycanda müstəmləkəçilik siyasəti" adlı, hələ XX əsrin 30-cu illərinin ortalarında işıq üzü görmüş ikicildlik sənədlər və materiallar külliyyatı[2] da nəşr olunmuş qaynaqlar içərisində mühüm yer tutur. Görkəmli alim İ.Petruşevski tərəfindən seçilib diqqətlə qruplaşdırılmış sənədlər içərisində təhsillə bağlı bir sıra məqamlara da rast gəlmək olur. Bu sənədlərdən biri də həmin topluda Xanıqovun aparmış olduğu hesablamalar, ənənəvi dini məktəblər haqqında gətirdiyi statistik göstəricilərdir. Bir sıra faktların dəqiqləşdirilməsi, yeni məktəblərin açılması ilə əlaqədar çar hakimiyyət orqanlarının rəsmi icra

---

[1] Акты собранные Кавказской Археологической Комиссией. Т. I-XII, Тифлис, 1866-1902.

[2] Колониальная политика российского царизма в Азербайджане в 20-60-х годов X IX в. Ч. 2, М.-Л., 1937

mexanizminin öyrənilməsi, çarizmin təhsil siyasətinin müstəmləkəçi xarakterini aşkara çıxaran faktların müəyyən edilməsi məqsədilə Qafqaz Təhsil Dairəsinin nəşr etdirdiyi sənəd və materiallar topluları da diqqətlə nəzərdən keçirilmişdir. Çar Rusiyasının Qafqazda yeritdiyi təhsil siyasətinin müəyyənləşdirilməsində, ayrı-ayrı məktəblərin açılması və fəaliyyətlərinin işıqlandırılmasında, Rusiyanın Qafqazdakı təhsil sisteminin öyrənilməsində Qafqaz Tədris Dairəsinin müxtəlif illərin rəsmi hesabatları və digər materialları və sirkulyarları[1] mühüm əhəmiyyətə malikdir. Bu hesabatlarda Qafqazda, o cumlədən Şimali Azərbaycanda məktəblər şəbəkəsi, bu məktəblərdə təhsil alanların sayı, cinsi və etnik tərkibi ilə bağlı statistik məlumatlar öz əksini tapdığıdan Azərbaycanın müsəlman əhalisinin təhsil prosesinə cəlb olunma səviyyəsini müəyyən etməyə imkan vermişdir.

Bakı Dövlət Universitetinin yaradılması, onun təsisində Azərbaycanın ictimai-siyasi xadimlərinin müstəsna rolunu, universitetin fəaliyyətini işıqlandırmaq məqsədilə "Bakı Dövlət Darülfünunun təsisi" adlı sənədlər toplusundan[2] istifadə edilmişdir.

Dissertasiya işinin yazılması prosesində həmçinin Yelizavetpol (Gəncə) quberniyasında bir sıra dövlət məktəblərinin açılması, onların fəaliyyəti, maliyyələşdirilməsi və idarə edilməsi ilə bağlı faktlar, 1900-cü ilə dair icmala[3] istinad edilərək tədqiq olunmuşdur.

İmperiya miqyasında təhsillə bağlı qəbul edilən qanun və əsasnamələr Rusiya İmperiyasının Qanunlar Külliyyatında[4] da öz əksini tapdığından, dövlətin rəsmi təhsil siyasətini müəyyən etmək baxımından mühüm əhəmiyyətə malikdir. Təhsillə bağlı məsələlər, o cümlədən məktəb əsasnamələrinə əlavə və dəyişikliklər Rusiya Xalq Maarifi Nazirliyinin Jurnallarında[5], eləcə də həmin nazirliyin qərarlar toplusunda[6] geniş əks olunduğu üçün, bu mənbələrə də tədqiqat işində yeri gəldikdə istinad edilmişdir.

Şimali Azərbaycanda yaradılan kənd təsərrüfatı ilə bağlı sənət məktəblərinin fəaliyyətinin tədqiq olunması, bu sahədə çarizmin yürütdüyü siyasətin müəyyən edilməsi məqsədilə Qafqaz İpəkçilik Stansiyası və Qafqaz

[1] Отчеты о состоянии учебных заведений Кавказского учебного округа за разные годы; Циркульяры по управлению КУО, 1870-1898 гг.
[2] Bakı Dövlət Darülfününün təsisi (sənədlər toplusu). Bakı, 1989
[3] Обзор Елизаветпольской губернии за 1900 г. Елизаветполь,1901
[4] Полное Собрание Законов Российской Империи. Собрание второе. Т. 4-47, СПб, 1830-1874; Свод законов. СПб. 1911
[5] Журналы Министерства народного просвещения. 1835-1853 гг.
[6] Сборники постановлений по Министерству Народного Просвещения. СПб., 1864-1865

Kənd Təsərrüfatı Cəmiyyətinin əsərləri və digər bu qəbildən olan mənbələrə[1] də müraciət edilmişdir. Qafqaz İpəkçilik Stansiyasının əsərlərində Qafqaz diyarında ipəkçiliyin inkişaf etdirilməsində, ipəkqurdu bəslənməsinin yeni üsullarının təbliğ edilməsində kənd məktəblərinin fəaliyyətinə geniş yer verilmiş, bu sahədə uğurlar haqqında müntəzəm materiallar dərc edilmişdir.

Bəhs olunan dövrə aid qiymətli mənbələrdən biri də Tiflisdə 1846-cı ildən 1916-cı ilə kimi ardıcıl nəşr edilmiş "Qafqaz təqvimi" adlı illik topludur[2]. Bu topluların mühüm əhəmiyyəti Qafqaz regionunda təhsil sahəsində il ərzində baş vermiş əsas yenilikləri: yeni məktəblərin açılması, şagirdlərin sayı və s. məsələləri əks etdirməsidir.

Azərbaycan Cümhuriyyəti dövründə qəbul edilmiş qərarlar, fərmanlar və digər qanunverici sənədlərin toplandığı və 1998-ci ildə nəşr olunmuş sənədlər toplusunda maarifçiliklə bağlı olan bir sıra önəmli qanun və qərarlar dərc edilmişdir[3] və dissertasiyada onlara yeri gəldikcə müraciət edilmişdir. Bu da tədqiqat işinin rəsmi sənəd və arxiv materialları cəhətdən zənginləşdirilməsinə zəmin yaratmışdır.

Son illərdə təhsil tarixinə maraq xeyli artmışdır. Bunun nəticəsidir ki, "Azərbaycan müəllimlərinin qurultayları (I-XII)" adlı materiallar toplusu[4] yenidən nəşr olunmuşdur. Bu kitabda Azərbaycan müəllimlərinin qurultaylarında qəbul edilən qərarlar, qurultayların gündəlikləri toplandığından mənbə kimi qiymətlidir və tədqiqat işində ondan istifadə edilmişdir.

Dissertasiyanın yazılmasında istifadə olunan üçüncü qrup mənbələri dövrün qəzetlərində yer almış materiallar hesab etmək olar. Azərbaycan dövri mətbuatının bünövrəsi sayılan "Əkinçi" və sonralar işıq üzü görmüş "Kaspi", "İqbal", "İrşad", "Tərəqqi", "Tərcuman", "Kavkaz", "Bakinskiye izvestiya" və digər qəzetlərin səhifələrində çap olunmuş məqalələrdə təhsil məsələlərinə münasibət bildirilmiş, məktəblərin fəaliyyəti və uğurları işıqlan-dırılmışdır. Sovet dövrünün qəzetlərində də bizi maraqlandıran məsələnin ayrı-ayrı aspektlərinə aydınlıq gətirilən xeyli sayda məqalə vardır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işində qarşıya qoyulan əsas məqsəd XIX əsrin əvvəllərindən XX əsrin əvvəllərinə qədər olan dövrdə rusdilli ibtidai və orta məktəblərin, rus müstəmləkəçiliyinin möhkəmlən-

---

[1] Труды Кавказской Шелководной Станции за 1887-1892 гг., Тифлис, 1889-1893; Труды Кавказского Общество Сельского Хозяйства, № 3, 1887

[2] Кавказский календарь на 1846-1917 гг. Тифлис, 1845-1916

[3] Азербайджанская Демократическая Республика (1918-1920). Законадательные акты (Сборник документов). Баку, 1998

[4] Azərbaycan müəllimlərinin qurultayları (I-XII) (tarixi-xronoloji, stenoqrafik materiallar). Bakı, 2008

dirilməsinə xidmət edən texniki, sənət və peşə məktəblərinin açılması, onların maliyyə təminatı, tabeçilik və idarəçilik qaydalarının Azərbaycanda xalqın maariflənməsində oynadığı rolu araşdırmaqdan ibarətdir. Bu məqsədə nail olmaq üçün aşağıdakı vəzifələri yerinə yetirmək nəzərdə tutulmuşdur:

- rusdilli məktəblərin yaradılmasını zəruri edən əsas səbəbləri müəyyən etmək;
- çar hökuməti tərəfindən yaradılmış məktəblərin fəaliyyətini müqayisəli şəkildə təhlil etmək;
- rusdilli məktəblərin pedaqoji kollektivi, şagird kontingenti ilə bağlı məsələləri araşdırmaq;
- real məktəb və gimnaziyaların orta təhsilin inkişafında rolunu işıqlandırmaq;
- sənət və texniki məktəblərin yaradılması və fəaliyyətinin əsas cəhətlərini tədqiq etmək;
- rusdilli məktəblərin Azərbaycanın iqtisadi-mədəni həyatına təsirini müəyyən etmək;
- rusdilli məktəblərin Azərbaycanda ənənəvi təhsil ocaqlarına təsiri məsələsini aydınlaşdırmaq;
- Müəllim seminariyalarının rusdilli müəllim kadrları hazırlanması sahəsindəki fəaliyyətinin xarakterik cəhətlərini təhlil etmək.

**Tədqiqatın elmi yeniliyi.** Təqdim edilən dissertasiya işi XIX-XX əsrin əvvəllərində çarizmin Şimali Azərbaycanda yürütmüş olduğu təhsil siyasətinin kompleks şəkildə öyrənilməsinə həsr edilmiş ilk tədqiqatdır. Mövzunun indiyədək ayrıca, müstəqil, xüsusi tədqiqat obyekti olmadığını nəzərə alıb bu elmi problemin araşdırılması mühüm elmi yenilikdir.

Dissertasiya işində ilk dəfə olaraq rusdilli təhsil geniş xronoloji çərçivədə (XIX-XX əsrin əvvəlləri) bütöv bir tam halında araşdırılmış, ümumiləşdirilmələr edilmiş, yeni arxiv materialları elmi dövriyyəyə gətirilmiş, həmçinin son illərdə nəşr edilmiş sənəd topluları və digər tarixşünaslıq materiallarından geniş istifadə edilmişdir. Qəza məktəbləri, birsinifli ibtidai məktəblər, gimnaziya və real məktəblər, sənət və texniki məktəblərin yaradılması və xalqın maariflənməsində oynadığı rol ilk dəfə ardıcıl şəkildə tədqiq edilmişdir.

Çarizmin təhsil siyasətinin interpretasiyasına müəllif yanaşması da yenidir. Sələflərimiz olmuş tədqiqatçılar burada nəzərdən keçirilmiş bir çox məsələlərə əvvəlcədən hazırlanmış konsepsiya ilə yanaşmış və bir qayda olaraq obyektiv analiz əvəzinə, faktların həmin konsepsiyaya uyğunlaşdırılmasına çalışmışlar. Belə ki, tədqiqatçıların bir çoxu, xüsusən də çar dövrü müəllifləri, sovet dövrü rus tarixşünaslığının nümayəndələri Rusiy-

anın Şimali Azərbaycanda yürütdüyü işğalçı, müstəmləkəçilik siyasətinə haqq qazandırmağa çalışmış, bu siyasəti mütərəqqi hal kimi dəyərləndirmiş və belə yanaşmaya müvafiq olan fakt və materialları üzə çıxarmışlar. Nəticədə çarizmin müstəmləkə siyasətinin tərkib hissəsi olan təhsil siyasətinin bir çox məqamları və özəllikləri kölgədə qalmışdır. Təqdim edilən dissertasiya işində təhsil sahəsində çarizmin yeritdiyi siyasətin obyektiv araşdırılması da önəmli yenilikdir.

Ümumilikdə, dissertasiya işi tədqiqata cəlb edilmiş bütün materialların kompleks şəkildə və müqayisəli təhlil aparılmaqla, milli-mənəvi dəyərlər əsas götürülməklə, müasir elmi tələblərə uyğun olaraq yazılmışdır. Dissertasiya işində ilk dəfə olaraq materiallar tarixi-pedaqoji baxımdan hərtərəfli şəkildə tədqiqata cəlb olunmuş və bu araşdırma zamanı əldə edilmiş elmi-statistik nəticələr tədqiqatın əsas elmi yeniliyini təşkil etmişdir.

**Tədqiqatın nəzəri və metodoloji əsasları.** Tədqiqatın nəzəri və metodoloji əsasını arxiv, tarixi, elmi-ictimai, statistik materialların təhlilinə elmi yanaşmaq prinsipi təşkil edir. Mövzu üzərində işləyərkən arxiv materiallarına, onun tədqiqinə həsr olunmuş monoqrafiyalara, dissertasiyalara və bilavasitə pedaqoji-tarixi materiallara tənqidi yanaşma, müqayisəli təhlil aparma əsas meyar olmuşdur. Dissertasiyada XIX əsrdə və XX yüzilliyin əvvəllərində mövzuya aid tarixi hadisə və proseslər xronoloji və məntiqi ardıcıllıqla izlənilmiş, öyrənilmiş və araşdırılmışdır. Problem araşdırılarkən son tədqiqatlara daha çox üstünlük verilmiş, elmi hesabatlara istinad edilmiş və məsələyə müasir tələblər baxımından yanaşılmışdır.

**Tədqiqatın elmi-təcrübi əhəmiyyəti.** Dissertasiya işində əldə edilmiş elmi nəticələr Azərbaycanın XIX-XX əsrin əvvəlləri dövrü tarixinin, xüsusən də mədəniyyət tarixinin tədqiqi üçün dəyərli sayıla bilər. Bu tədqiqat əsərinin materiallarından ali məktəblərin humanitar təmayüllü fakültələrində ixtisas kurslarının keçilməsində, ali məktəblər üçün dərslik və metodik vəsaitlər hazırlanmasında, eləcə də tarixçilər və pedaqoqlar tərəfindən Azərbaycanın təhsil tarixinə dair ümumiləşdirici əsərlərin yazılmasında istifadə edilə bilər.

**Tədqiqatın aprobasiyası.** Dissertasiya Gəncə Dövlət Universitetinin "Azərbaycan tarixi" kafedrasında hazırlanmışdır. Tədqiqat işinin əsas məzmunu mövzuya aid nüfuzlu elmi jurnallarda dərc edilmiş məqalələrdə, beynəlxalq konfransda edilmiş məruzədə öz əksini tapmışdır. Dissertasiya işi Gəncə Dövlət Universitetinin "Azərbaycan tarixi" kafedrasında iki dəfə geniş müzakirə edilmiş və müdafiəyə tövsiyyə edilmişdir.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, üç fəsil, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**Giriş** hissəsində tədqiqat obyekti kimi seçilmiş mövzunun elmi aktuallığı əsaslandırılmış, problemlə bağlı olan mənbələrin səciyyəsi verilmiş və problemin tarixşünaslığı təhlil edilmiş, tədqiqatın məqsəd və vəzifələri müəyyən edilmiş, elmi yenilikləri, əməli əhəmiyyəti qeyd olunmuşdur.

Dissertasiyanın birinci fəsli **«Şimali Azərbaycanın Rusiya imperiyası tərəfindən işğalı və rusdilli təhsil şəbəkəsinin formalaşması»** adlanır və dörd yarımfəsildən ibarətdir. Birinci yarımfəsildə rusdilli təhsil şəbəkəsinin müstəmləkəçilik siyasətinə xidmət etməsindən bəhs olunmuşdur. Şimali Azərbaycan Rusiya imperiyası tərəfindən işğal edildikdən sonra çar hökuməti müstəmləkə əsarəti altına aldığı ərazilərdə özünün siyasi və iqtisadi dayaqlarının möhkəmləndirilməsinə xidmət edən məmurlar ordusu hazırlayacaq yeni təhsil sisteminin tətbiq edilməsi zərurəti ilə qarşılaşdı. Ona görə də, çarizmin Şimali Azərbaycandakı məktəb siyasəti imperiyanın milli müstəmləkə siyasətinin üzvi tərkib hissəsi olmuşdu. Müstəmləkə ucqarlarının Rusiyaya möhkəm bağlanması və ruslaşdırılma siyasətinin həyata keçirilməsində təsis olunacaq yeni məktəblərin rusdilli olması çox vacib idi.

Tiflis hərbi qubernatorunun, habelə Qafqaz tədris popeçitelinin – hamisinin təklifləri əsasında Qafqazdakı rus qoşunlarının komandanı, əslində Qafqazın baş rəisi qraf Paskeviç tərəfindən Cənubi Qafqazda ilk rusdilli təhsil müəssisələrinin – qəza məktəblərinin açılması haqqında əsasnamə layihəsi[1] çar I Nikolay tərəfindən 1829-cu il avqustun 5-də təsdiq edərək qanuniləşdirdi.[2] Cənubi Qafqazdakı qəza məktəblərində təhsilin məzmunu Mərkəzi Rusiyadakı məhəllə məktəblərinin təhsili ilə eyni idi. Bu əsasnamədən sonra 1848-ci, 1853-cü, 1860-cı və 1867-ci illərdə Cənubu Qafqazda təhsil sistemində yeni əsasnamələr tətbiq edildi. Tədqiqatda bu əsasnamələrin həyata keçirilməsi və bu yolda ortaya çıxan problemlər təhlil edilmişdir.

Çarizm Şimali Azərbaycanda rusdilli məktəblərə yerli imtiyazlı təbəqənin, nüfuzlu şəxslərin uşaqlarını qəbul etməklə, həm onları öz tərəfinə çəkmək, həm də yeni nəsli ruslaşdırmaq siyasətindən çıxış edərək bu sahədə ekperiment xarakterli bir sıra layihələr həyata keçirmişdi.

"Ənənəvi milli-dini təhsilin durumu və yeni tipli müsəlman məktəblərinin açılması" adlı ikinci yarımfəsildə qeyd edilmişdir ki, XIX əsrdə Şimali Azərbaycanda əsas tədris müəssisələri ənənəvi milli-dini məktəblər olaraq qalırdı. Kənd məscidlərinin nəzdində olan məktəblər yerli əhali arasında təhsili yayan yeganə vasitə idi. Bir çox hallarda «məscidə getmək» dedikdə,

---

[1] АКАК. т. 7. док. 73, с. 66

[2] Высочайшее утвержденное положение о Закавказских училищах. Полное Собрание Законов Российской Империи. 1829, ст. 3060

«məktəbə getmək» nəzərdə tutulurdu.[1] Çar hökuməti ənənəvi məktəbləri sözün həqiqi mənasında normal təhsil ocağı saymadığından, onların açılmasında müəyyən qayda yaradılmasını artıq hesab edərək, şifahi razılıq verməklə kifayətlənirdi. Həm də molla məktəblərinin açılmasına göz yuman çar hökuməti bununla da yerlərdə baş verə biləcək hər-hansı narazılığı sakitləşdirmək üçün ruhanilərin köməyinə ümid edirdi. Şimali Azərbaycanda adi məktəblərdən başqa orta ruhani məktəbləri olan mədrəsələr də fəaliyyət göstərirdi. Bu məktəblər adətən böyük məscidlərin nəzdində açılır və onların hesabına saxlanılırdı. Mədrəsələrdə təhsil və yaşamaq pulsuz idi.

Dövlət müsəlman məktəbləri açılması bir qədər gec, 1847-ci il aprelin 18-də şiə müsəlmanları üçün məktəbin təsis edilməsi haqqında nizamnamə təsdiq edildikdən sonra mümkün oldu.[2] Məktəbin maliyyələşdirilməsinə vəsaitin bir hissəsi xəzinədən, qalan hissəsi də Tiflis məscidi tərəfindən ödənilməli idi.[3] Həmin il dekabrın 12-də Tiflis şəhərində şiə müsəlman dövlət məktəbi açılmışdı. Bunun ardınca Azərbaycanın digər şəhərlərində: Yelizavetpol, Şuşa, Şamaxı, Dərbənd, Bakı, Lənkəran, Nuxa və Zaqatalada da dövlət müsəlman məktəbləri açıldı. Lakin məktəb işinin düzgün qurulmaması, müəllim kadrlarının kəskin surətdə çatışmaması, məktəblərin təsadüfi ianələrdən, yardımlardan asılı olması, canişinliyin cüzi xərcinə möhtac qalması, müəllimlərə aşağı maaşın verilməsi müəyyən müddətdən sonra bu məktəblərin fəaliyyətinin dayandırılmasına[4] səbəb oldu.

Birinci fəslin üçüncü yarımfəslində ilk rusdilli dövlət məktəblərinin – qəza, ibtidai və qız məktəblərinin açılması, onların inkişafı, şagirdlərin sayı və milli tərkibi araşdırılmışdır. Qeyd edilmişdir ki, Şimali Azərbaycanda ilk rusdilli məktəb olan Şuşa qəza məktəbi XIX əsrin 60-cı illərində Cənubi Qafqazda ən çox şagirdi olan məktəb hesab olunurdu. 1865-ci ildə bu məktəbdə təhsil alan şagirdlərin sayı 249-a çatmışdı ki, şagirdlərin xeyli hissəsini azərbaycanlılar təşkil edirdi.[5] XIX əsrin ortalarında Bakı qəza məktəbi Cənubi Qafqazın nümunəvi qəza məktəbləri ilə bir sırada dururdu.

Birinci fəslin son bölməsində təhsildə ruslaşdırma siyasəti, onun tədricən genişləndirilməsi və gücləndirilməsi tədqiq edilmişdir. Çarizmin maarif sahəsindəki siyasəti əslində təcrübədə savadlı müəllim kadrların yetişdirilməsinə deyil, onun siyasətinə sadiq qalan məmurların hazırlanmasına yönəldilmişdi.

---

[1] Nəbiyev B. Firidun bəy Köçərli. Bakı, 1984, s. 145
[2] АКАК, т. X, док. 107, с.130
[3] АКАК, т. X, док., с. 857
[4] АКАК, т. XI, с. 735, с. 1380
[5] ГИА ГР, ф. 423, оп. 1, д. 32, л. 1

II fəsil **«Kapitalist münasibətlərinin inkişafı və rusdilli təhsil şəbəkəsi»** adlanır. 6 yarımfəsildən ibarət olan bu fəsildə ümumtəhsil məktəbləri nəzdində kənd təsərrüfatı və sənət şöbələrinin, yeni tipli rus-Azərbaycan məktəblərinin, ilk orta məktəblərin – real məktəb, progimnaziya və gimnaziyaların, bədii-sənətkarlıq və musiqi məktəblərinin, Qori Müəllimlər Seminariyası və onun Azərbaycan şöbəsinin açılması, peşə məktəbləri şəbəkəsinin genişləndirilməsi kimi məsələlərdən bəhs olunmuşdur.

XIX əsrin son rübündə inkişaf etməkdə olan kapitalist iqtisadiyyatının ixtisaslı fəhlələrə, sənayenin ayrı-ayrı sahələrində texnikaya xidmət göstərməyi, kənd təsərrüfatını səmərəli surətdə qurmağı və yeni nəqliyyat vasitələrini idarə etməyi bacaran təhsil görmüş, savadlı mütəxəssislərə tələbatının durmadan artması çar hakimiyyəti orqanlarını Şimali Azərbaycanda da ümumtəhsil və peşə məktəblərinin sayını müəyyən qədər artırmağa, mövcud məktəblərdə təhsil səviyyəsini yüksəltməyə məcbur edirdi.

Təhsilli adamlara tələbatın artması hökumətlə yanaşı, milli burjuaziyanı da xalq təhsili şəbəkəsinin genişləndirilməsi, müxtəlif yeni tipli təhsil müəssisələrinin açılması, fəhlələrə və gələcəkdə onları əvəz edəcək uşaqlarına təhsil verilməsi işində bilavasitə iştiraka vadar edirdi. Milli burjuaziya nümayəndələri ümumi və peşə təhsili müəssisələri şəbəkəsinin genişləndirilməsi və xalqın maarifləndiriməsi sayəsində fəhlələrin və kəndlilərin həyat şəraitinin müəyyən qədər yaxşılaşmasına və onların bu yolla sahibkarlara yaxınlaşmasına nail olmağa ümid edirdilər.

Şimali Azərbaycandakı sənət məktəbləri kənd təsərrüfatı məhsulları yetişdirmək və şagirdlərə peşə öyrətmək sahəsində xeyli nailiyyətlər qazanmışdı. 1896-cı ilin oktyabrın 27-də Mərdəkanda görkəmli xeyriyyəçi sahibkar H.Z.Tağıyevin açdığı bağçılıq məktəbinin əsas məqsədi tədris-təcrübə sahəsi vasitəsilə yerli bitkiçiliyi inkişaf etdirmək və bu sahədə şagirdlərə təcrübi bilik vermək idi. Mərdəkan bağçılıq məktəbindən bəhs edən Bakı qubernatoru 1896-cı ildə imperatora hesabatında yazırdı: «Yalnız müsəlmanlar üçün nəzərdə tutulan bu məktəbin təşkili şagird axınına səbəb oldu və gözlənildiyindən daha çox şagird toplandı».[1] Bir bağçılıq məktəbi də 1899-ci ildə Qubada açılmışdı. Məktəb 1913-cü ildə Peterburqda keçirilmiş Ümumrusiya bağçılıq, üzümçülük və bostançılıq yubiley sərgisində nümunəvi meyvə kolleksiyası və xeyirli fəaliyyətinə görə qızıl medala layiq görülmüşdü.[2]

XIX əsrin sonu – XX əsrin əvvəllərində Şimali Azərbaycanda peşə təhsili ilk növbədə Bakıda cəmləşmişdi. Şəhərdə texniki vəzifələrin 70 faizini xüsusi hazırlığı olmayan şəxslər tuturdular. Bu texniki inkişafa mənfi təsir

---

[1] Əhmədov H. XIX əsr Azərbaycan məktəbi, Bakı, 1985, s. 157-158.

[2] ARDTA, f. 58, siy. 1, iş 21, v. 52

göstərməklə yanaşı, bütün fabrik, zavod istehsalının əsaslı artımına da mənfi təsir göstərirdi. Xüsusən neft sənayesində mühəndislərə, texniklərə ciddi ehtiyac duyulurdu. İxtisaslı fəhlə kadrları isə əsasən şagirdlik yolu ilə hazırlanırdı. Lakin texniki kadrların çatışmazlığı bütövlükdə çar Rusiyasında, xüsusən Türküstan diyarında və Qafqazda daha çox hiss edilirdi.[1]

Bakıda ilk yeni tipli rus-Azərbaycan məktəbinin açılmasına Rusiya Xalq Maarifi Nazirliyi tərəfindən təsdiq olunmuş tədris planına riayət edilmək şərti ilə 1887-ci ilin sentyabrın 27-də icazə verildi.[2] Məktəb tədrisin məzmunu və təşkilinin orijinallığı baxımından butun imperiya miqyasında seçilirdi. Məktəbin qısa müddətdə əldə etdiyi nailiyyətləri haqqında Qafqaz Tədris Dairəsinə məlumat verən Bakı quberniyası və Dağıstan vilayəti xalq məktəbləri direktoru həmin ilin noyabrın 17-də yazırdı ki, nə dairədə, nə də direksiyada yer verilməyən və heç bir vəsaiti olmayan Mahmudbəyovla Qəniyevin yerli əhalinin yaxından maddi yardımı ilə kirayə edilmiş binada açdıqları məktəb əhalinin rəğbətini qazanmışdır.[3]

Əhali arasında təhsilə marağın artdığını nəzərə alan Bakı şəhər duması 1891-ci ilin sentyabrında Bayırşəhərdə iki, 1892-ci ildə İçərişəhərdə ikinci rus-Azərbaycan məktəbinin açılması haqqında qərar qəbul etməli oldu.[4] Bakının ardınca 1894-cü ildə Naxçıvan şəhərində, 1901-ci ildə Gəncə şəhərinin Bağbanlar məhəlləsində, 1911-ci ildə Lənkəran şəhərində və Maştağa kəndində rus-Azərbaycan məktəbləri fəaliyyətə başlamışdı. XX əsrin əvvəllərində Bakı şəhərində azərbaycanlı qızların təhsil aldığı bir sıra rus-Azərbaycan məktəblərinin açılması[5] həmin dövr üçün əlamətdar hadisə idi. Artıq 1914-cü ildə Bakıda 12 rus-Azərbaycan məktəbi fəaliyyət göstərirdi ki, bunlarda da 2546 nəfər təhsil alırdı. Həmin ildə Şimal Azərbaycanda belə məktəblərin sayı 25-dən çox idi.[6] Bütün çatışmazlıqlara, ciddi problem və nöqsanlara baxmayaraq bu məktəblər bəhs edilən dövrdə Şimali Azərbaycanda savad və təhsilin yayılmasında, yüksək ixtisaslı mütəxəssislərin hazırlanmasında pozitiv rol oynamışdı.

Azərbaycanda xalçaçılığın və digər bədii sənət nümunələrinin daha da inkişaf etdirilməsi üçün Qafqazda bədii-sənətkarlıq məktəblərinin açılması ilə əlaqədar olaraq xüsusi komissiya yaradılmışdı. Komissiya bu məqsədlə dörd

---

[1] İlkin Qılman. Bakının üç üləması. "Ədəbiyyat və incəsənət" qəzeti, 1990, №32
[2] «Каспий», № 228, 1895 г.
[3] Məmmədov X. Sultan Məcid Qənizadə. Bakı, 1983, s. 38.
[4] ARDTA, f. 309, siy. 2, iş 944, v. 10
[5] Tağıyev Ə.S. Azərbaycanda məktəb tarixi (XIX əsrin sonu – XX əsrin əvvəlləri) Bakı, 1993, s. 86
[6] Azərbaycan Sovet Ensiklopediyası, I-X cildlər, Bakı, 1976-1987.

tipdə təhsil müəssisəsi açmağı lazım bilmişdi. Bunlar bədii sənət texnikumları, bədii sənət məktəbləri, bədii-sənətkarlıq emalatxanaları və rəsm sinifləri idi. Müəssisələrin hər biri tamamlanmış təhsil verməli idi.[1] 1910-cu ildə Rusiyada ilk dəfə olaraq Bakı orta texniki məktəbində döymə və minakarlıq emalatxanası yaradıldı. Bu emalatxana Azərbaycan xalqının tətbiqi sənətinin zəngin ənənələrinə əsaslanırdı. 1913-cü ildə orada 15 şagird təhsil alırdı.[2]

Cənubi Qafqazda rus dilində ümumi təhsil müəssisələrinin sayının artması hökuməti həmin məktəblər üçün müəllim kadrları hazırlamaq məsələsi ilə daha yaxından məşğul olmağa vadar edirdi. Şimali Azərbaycanın ibtidai məktəbləri, o cümlədən rus-Azərbaycan məktəbləri üçün müəllimlər hazırlanmasında böyük rolu olan Cənubi Qafqaz Müəllimlər Seminariyası 1876-cı ilin sentyabrın 12-də Qori şəhərində öz fəaliyyətinə başladı.[3] «Əkinçi» qəzeti bu barədə yazırdı: «hökm olunub ki, əvvəl zaman Gəncə və Badkubə quberniyalarının hər birində kənd əhli üçün dövlət tərəfindən 3 məktəbxana açılsın. Onların üçü bu il Gəncə quberniyasında açılacaq, amma Badkubə quberniyasında hələ açılmayacaq. Çünki ol məktəbxanalarda dərs deməyə müəllimlər yoxdur ki, rus dilindən savayı xalqın dilini həm bilsinlər, ona binaən Qori şəhərində bir məktəbxana açılıb ki, orada oxuyan şagirdləri sonra müəllim eləsinlər».[4]

Hökumət palatasının dəftərxanasından Qafqaz Tədris Dairəsi müdirinin dəftərxanasına göndərilmiş 8762 saylı rəsmi sənəddə yazılırdı: «... Tatarlardan (azərbaycanlılardan – G.Ə.) kənd müəllimləri hazırlamaq məqsədilə Sərdarın baş idarəsinin göstərişi əsasında 1879-cu il sentyabrın 1-də seminariyanın nəzdində yeni təsis edilmiş xüsusi tatar (Azərbaycan – G.Ə.) şöbəsinin yerləşdirilməsi üçün lazım olan avadanlıqları almağa Zemstvo vergisindən pul buraxıldığını zati-alilərimizə bildirməyi hökumət palatası özü üçün şərəf bilir».[5] Bu seminariyanın Azərbaycan şöbəsinin ilk rəhbəri olan A.Çernyayevskinin seçdiyi ilk şagirdlərin siyahısında sonralar Azərbaycan maarifinin inkişafında böyük xidmətləri olmuş Firidun bəy Köçərlinin, Səfərəli bəy Vəlibəyovun, Rəşid bəy Əfəndiyevin, Mahmud bəy Mahmudbəyovun və digər məzunların adları var idi.

İlk dəfə təşkil edilməsinə baxmayaraq Azərbaycan şöbəsinin tələbələri qəbul imtahanlarında elə ilk ildən fərqləndilər. Dövrün mənbələrindən birində

---

[1] «Каспий», 20 января 1900 г.
[2] Демин И. Бакинское средне-техническое училище. Исторический очерк. Баку, 1913, с. 60.
[3] Seyidov F.Ə. Qori seminariyası və onun məzunları. Bakı, 1988, s. 7.
[4] "Əkinçi" (1875-1877) tam mətni. Bakı, 1979, s. 174.
[5] Nəzərli Ş. Qoridən gələn qatar. Bakı, 1998, s. 17

saxlanılmış məlumatlara görə «Çernyayevskinin tələbə toplamaq məqsədilə qəsdən ezam edilərək yerlərdə tələbə seçməsi və qismən imtahan etməsi nəticəsində azərbaycanlıların, seminariyaya daxil olmaq üçün hazırlaşan xristianlardan ümumiyyətlə yaxşı imtahan vermələri aşkar olundu».[1]

Bununla yanaşı, 1881-ci ildə Qərbi Azərbaycanın mərkəzində – İrəvanda Müəllimlər Seminariyası təsis edildi. Seminariyada rus, erməni və Azərbaycan dillərində şöbələri var idi. Burada bağçılıq, təbib və xəttat peşələri də öyrədilirdi.[2]

Bu seminariyaların fəaliyyəti nəticəsində təxminən 50 il ərzində (1920-ci ilədək) 262 nəfər azərbaycanlı, onlardan 185 nəfəri Qori seminariyasında, 63 nəfəri İrəvan seminariyasında, 13 nəfəri Tiflis müəllimlər institutunda, 1 nəfəri Şimali Qafqaz seminariyasında təhsil almışdı.[3] Bu məzunlar nəinki xalqın sadəcə maariflənməsi işinə əvəzsiz töhfələr vermiş, habelə vətənimizin qüzeyində milli özünüdərk şüurunun oyanması və inkişafı işində çox böyük rol oynamışdılar.

III fəsil **«XX əsrin əvvəllərində Şimali Azərbaycanda rusdilli təhsil sistemi»** adlanır və 4 yarımfəsildən ibarətdir. Bu fəsildə XX əsrin əvvəllərində Şimali Azərbaycanda təhsilin inkişaf etdirilməsində ziyalıların rolu, H.Z.Tağıyevin qız məktəbi, yeni müəllimlər seminariyalarının açılması, Azərbaycan Xalq Cümhuriyyəti dövründə təhsilin vəziyyəti və Bakı Dövlət Universitetinin yaradılması məsələlərindən bəhs olunmuşdur.

XX əsrin əvvəllərində Bakı Rusiyanın nəhəng sənaye və iqtisadi mərkəzlərindən birinə çevrilmişdi. Neft sənayesinin, gəmiçiliyin, ticarətin inkişafı, eləcə də Şimali Azərbaycanda kənd təsərrüfatı məhsullarına, xüsusən də pambıq və ipək məhsullarına tələbatın artması ilə əlaqədar olaraq, Bakı ilə yanaşı Yelizavetpol, Nuxa, Şuşa və digər şəhərlərdə yüngül və yeyinti sənayesi müəssisələri yaradılırdı. Bu dövrdə təhsilli, bilikli adamlara ehtiyac daha kəskin şəkildə duyulurdu. Bu da çarizmi istər-istəməz əyalətlərdə rusdilli təhsil səviyyəsini yüksəltməyə, milliyətcə azərbaycanlı olan yerli kadrların hazırlanmasına diqqət ayırmağa vadar edirdi.[4] Bu, Şimali Azərbaycanda məktəblər şəbəkəsinin, eləcə də təhsil alanların sayının nəzərəçarpacaq dərəcədə artmasına gətirib çıxarmışdı.

Xalq maarifinin inkişafı çarizmin bilərəkdən yaratdığı bir sıra maneələri dəf etməli olurdu. Onların ən mühümü hökumətin təhsilə ayırdığı vəsaitin son

---

[1] Циркуляр по управлению КУО, 1879, № 11, с. 402
[2] ЦГИА РФ в Санкт-Петебурге, ф. 1268, оп. 25, д. 25, л. 1-2.
[3] Tağıyev Ə. Azərbaycanda pedaqoji fikrin inkişafı tarixindən (XIX əsrin axırları-XX əsrin əvvəlləri) Bakı, 1961, s. 14
[4] ЦГИА РФ в Санкт-Петебурге: Ф.1276, оп.20, д. 124, л. 1-2

dərəcədə məhdudluğu idi. Belə ki, bu vəsaitdən hər adama düşən pay 1902-ci ildə Bakı quberniyasında 79 qəpik, Yelizavetpol quberniyasında isə bir qədər çox 97 qəpik idi. Cənubi Qafqazda polisin saxlanmasına hökumət 4,4 milyon rubl xərcləyən hökumət xalq maarifinin ehtiyaclarına 1,7 milyon rubl, yəni 2,6-2,7 dəfə az ayırırdı.

Maarifçilik və təhsil ideyalarının həyata keçirilməsində, xalq təhsili müəssisələri şəbəkəsinin genişlənməsində «Nicat» cəmiyyəti, Həsən bəy Zərdabi, Nəriman Nərimanov kimi ictimai xadimlər mühüm rol oynamışdılar. Onların təşəbbüsü ilə 1906-cı ilin yayında Bakıda Azərbaycan müəllimlərinin I qurultayı çağırıldı ki, burada Cənubi Qafqazın bütün quberniyalarından nümayəndələr iştirak edirdilər. Qurultay ibtidai məktəblərdə Azərbaycan dilinin tədrisi üzrə plan və proqram qəbul etdi.[1]

Qabaqcıl ziyalılar yaranmış vəziyyətdən çıxış yolunu təkcə ana dilində məktəblərin açılmasında deyil, yeni təhsil proqramlarının, dərsliklərin və dərs vəsaitlərinin, eləcə də qəzet və jurnalların hazırlanmasında, nəşr olunmasında görürdülər. XX əsrin əvvəllərində Şimali Azərbaycanda rusdilli təhsil müəssisələrinin getdikcə genişlənməsi, onların əhali içərisində daha möhkəm etibar qazanmasında Azərbaycanın tanınmış ziyalılarının əvəzsiz rolu olmuşdu. Vətənimizin siyasi və mədəni tarixində silinməz izlər qoymuş bu şəxsiyyətlər çalışdıqları sahədən asılı olmayaraq yerli əhali içərisində mütərəqqi dünyəvi rusdilli təhsilin təbliğində, müvafiq dərsliklərin hazırlanmasında, məktəblərin açılmasında geniş və sistemli işlər görmüşdülər.

Şimali Azərbaycanda milli təhsilin inkişafına və xalqın maariflənməsinə yerli burjuaziya nümayəndələri də çox böyük töhfələr vermişdilər. Onların içərisində tanınmış neft sənayeçisi və xeyriyyəçi, millətinin savadlanmasına və maariflənməsinə təmənnasız xidmətlər göstərmiş Hacı Zeynalabdin Tağıyevin rolu xüsusilə böyükdür. Onun dini xürafatın hakim olduğu bir şəraitdə, «anaları savadsız olan xalq kordur» deyərək, azərbaycanlı qızları savadlı etmək üçün saysız-hesabsız maneələri dəf edərək qız məktəbi açması çox böyük hünər idi.[2] «Kaspi» qəzeti H.Z.Tağıyevin qız məktəbini açmaq istəməsinə yüksək qiymət verərək yazırdı: «Müsəlman qızlar üçün məktəbin açılması, bu diyarda, hətta imperiyada birincidir».[3]

Məktəb zamanına görə xalq maarifi sahəsində böyük mütərəqqi rol oynamışdır. Sonralar bu məktəbin bir sıra məzunları Şimali Azərbaycanda

---

[1] Azərbaycan müəllimlərinin qurultayı (I-XII) (tarixi-xronoloji, stenoqrafik materiallar). Bakı, 2008, s. 18-19

[2] İsmayıl M., İbrahimov M. El atası, s. 20

[3] «Каспий», 18 ноября 1903 г.

qadın ziyalı kadrlarının ön dəstəsini təşkil etmiş, ömürlərini xalq maarifi və mədəniyyətinin inkişafına həsr etmişlər.[1]

XX əsrin əvvəllərində Şimali Azərbaycanda – İrəvan, Yelizavetpol və Bakı quberniyalarında, habelə Borçalı və Dərbənd bölgələrində müəllim kadrlarının kəskin çatışmazlığı yeni müəllim seminariyalarının və yaxud institutlarının açılmasını tələb edirdi. Lakin ümumi təhsil bazasının zəif olması, çarizmin qatı müstəmləkəçi milli ayrı-seçkilik siyasəti yeritməsi müəllimlər hazırlayan seminariya və ali məktəblərin təsis edilməsinə ciddi çətinlik yaradırdı. Ən böyük əngəl isə, belə məktəblərin açılmasına çarizmin biganəliyi və müxtəlif bəhanələr gətirərək boyun qaçırması idi.

Azərbaycan dili müəllimlərinə olan ehtiyacı nəzərə alan «Nəşri-maarif» cəmiyyətinin idarə heyəti fəaliyyətinin ilk illərindən müəllimlərin hazırlanması məsələsinə baxmış, xüsusi kurslarda xeyli müəllim hazırlamışdı.[2] Bu heç də Azərbaycandilli müəllim məsələsini həll edə bilməmişdi. Ona görə də, «Nəşri-maarif» cəmiyyəti 1907-ci ilin yanvarında Qafqazda orta məktəb və mədrəsə təhsili almış məzunlar üçün Bakıda Darülmüəllimin (seminariya) açmaq qərarını qətiləşdirmiş və bu məqsədlə Bakı quberniyası və Dağıstan vilayəti xalq məktəbləri müdiriyyətinə xahişlə müraciət etmişdi.[3] Hökümətin icazəsindən sonra 1907-ci ilin sentyabrınadək «İslam» müəllimlik məktəbi (seminariya) üçün məktəb avadanlığı, dərs ləvazimatı və məktəbin kitabxanasının təşkili üçün vacib inventarlar alınmışdı ki, cəmiyyət tərəfindən bunlara ilkin ödəniş üçün 2 000 rubl vəsait ayrılmışdı.[4] «İslam» seminariyası orta məktəb və birillik müəllim kursu şəklində təşkil olunmuşdu. Seminariyanın iki buraxılışı olmuş və 28 nəfər müəllimlik şəhadətnaməsi almışdı. Lakin «Nəşri-maarif» cəmiyyəti 1909-cu ilin oktyabrında maliyyə çətinliyi üzündən 900 rubl ianə verilməsi xahişilə şəhər dumasına müraciət etdikdə, şəhər duması tərəfindən bu vacib köməklik göstərilmədiyinə görə şagird qəbulunu dayandırmalı olmuşdu.[5]

Milli burjuaziya seminariyanın təsis edilməsinə lazım olan avadanlığın alınması və bu məktəbin saxlanılması üçün mailiyyə vəsaiti ayırmağa hazır idi. Yalnız Bakı burjuaziyası deyil, habelə Yelizavetpol, Nuxa və Şuşa ictimaiyyəti də seminariyanın açılmasına maliyyə yardımı göstərməyə çalışırdı.[6]

---

[1] Tağıyev Ə. Azərbaycanda pedaqoji fikrin inkişafı tarixindən, s. 7
[2] «Каспий», 1907 г., № 287
[3] ARDTA f. 312, siy. 1, iş 2, v. 69.
[4] ARDTA f. 46, siy. 2, iş 120, v. 10.
[5] ARDTA f. 312, siy. 1, iş 2, v. 26.
[6] ARDTA f. 311, siy. 1, iş 136, v. 3

Bir sıra çətinliklərdən sonra, nəhayət, 1914-cü il noyabrın 5-də Yelizavetpol şəhərində Müəllimlər Seminariyası fəaliyyətə başladı. Birinci il seminariyaya 10 nəfər azərbaycanlı qəbul olundu. Seminariyanın tədris proqramı ilə tanış olan şəhər ictimaiyyəti Azəbaycan dili və ilahiyyat fənlərinin tədris olunmadığı üçün öz narazılıqlarını bildirdilər. Ona görə də, Yelizavetpol Müəllimlər Seminariyasının direktoru A.K.Villiams 1915-ci il oktyabrın 15-də Qafqaz Tədris Dairəsinin müdirinə ünvanladığı məktubunda Azərbaycan dili və ilahiyyat fənlərinin tədris olunması üçün müəllimlərin dəvət edilməsinə əlavə vəsait ayrılmasını xahiş etdi[1]. Hökumət isə əlavə vəsait ayırmaqdan imtina etdi. Belə olan təqdirdə, azəbaycanlı xeyriyyəçi Musa Nağıyev həmin ştatların açılmasına öz tərəfindən ianə ayırmağı öhdəsinə götürdü.[2] Seminariyaya Azərbaycan dili fənnini tədris etməyə Həmid bəy Şahtaxtinski, ilahiyyat fənninin tədrisinə isə Mirzə İdris Axundzadə işə dəvət olunmuşdu. 1916-cı ildə seminariyada təhsil alan 64 tələbənin 19 nəfəri azərbaycanlı idi. 1919-cu ildə seminariya milliləşdirildikdən sonra onun direktoru vəzifəsinə Həsən bəy Bağırov təyin olundu.

Bakı şəhərində 1916-cı ilin noyabrında qadın Müəllimlər Seminariyası öz fəaliyyətinə başladı. Seminariyada təhsil müddəti 3 ilə nəzərdə tutulmuşdu. Şəhərdə fəaliyyət göstərən bir sıra məktəblər bu seminariyaya qəbul olunacaq abuturiyent hazırladığına görə, seminariyaya tələbə qəbulu məhz həmin məktəblərin məzunları hesabına reallaşırdı.[3]

1918-cı ilin yayında Qori Seminariyasının Azərbaycan şöbəsinin müdiri Firidun bəy Köçərli AXC hökumətinin ayırdığı vəsait hesabına[4] Seminariyanın Azərbaycan şöbəsinin avadanlığını qatarla Qazaxa daşıtdırdı və onun bazası əsasında Qazax Müəllimlər Seminariyasını təşkil etdi.[5]

1918-ci ilin 28 mayında yaradılan Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətinin əsas istiqamətlərindən biri dövlətin ərazi bütövlüyünün müdafiəsi ilə yanaşı, xalq maarifçiliyinin yeni milli platformada həyata keçirilməsi idi. Xalq Cümhuriyyətinin təhsil sahəsindəki fəaliyyəti məktəblərin milliləşdirilməsinə, Azərbaycandilli məktəblərin yaradılmasına, ali və orta ixtisaslı milli kadrların hazırlanmasına yönəlmişdi.

Müvafiq təhsil şəbəkəsinin mövcud tələblərə cavab verməməsini nəzərə alan Xalq Maarifi Nazirliyi bu sahədə köklü islahatlara başladı. 1918-ci il

---

[1] ARDTA f. 311, siy. 1, iş 61, v. 126-127
[2] ARDTA f. 311, siy. 1, iş 107, v. 2
[3] ARDTA f. 312, siy. 1, iş 279, v. 4
[4] Азербайджанская Демократическая Республика (1918-1920). Законадательные акты (Сборник документов) Баку, 1998, с.190
[5] "Azərbaycan", 25 oktyabr 1918-ci il

avqustun 2-də bəhs olunan işlərlə bağlı əsasnamə qəbul edildi. Nazirliyin 11 avqust 1919-cu il tarixli sərəncamı ilə Bakıda, Gəncədə və Nuxada yerləşən «Müqəddəs Nina» məktəbləri Azərbaycan dilində təhsil verən milli qız gimnaziyalarına çevrildi. 1919-cu ilin yayında Azərbaycanda orta və ibtidai məktəblərdə milli siniflər üçün müəllimlər hazırlayan qısamüddətli ixtisas kursları açıldı. Həm kişi, həm də qadın kursları Bakı, Gəncə və Nuxada, yalnız kişi kursları isə Şuşa, Qazax, Qusar, Salyan və Zaqatalada açılmışdı. Nazirlik bir tərəfdən ali, orta və ibtidai məktəblər yaradır, digər tərəfdən ziyalıların hazırlanması ilə bağlı kurslar təşkil edir, başqa bir tərəfdən isə dərsliklərin və dərs vəsaitlərinin tərcüməsi ilə bağlı tərcümə-nəşriyyat işlərini qaydaya salırdı. Xaricdə təhsil almaq məsələlərinə xüsüsi önəm verən hökumət 1919-cu il sentyabrın 1-də 100 tələbənin xarici ali təhsil müəssisələrinə göndərilməsi barədə qərar qəbul etmişdi. Qərarda o da göstərilirdi ki, dövlət təqaüdü hesabına oxuyan tələbələr təhsillərini bitirdikdən sonra dövlətin onlara təyin etdiyi yerdə 4 il xidmət etməyə borcludurlar.[1]

Bu illərdə AXC qarşısında dayanan mühüm vəzifələrdən biri də ali təhsilli milli kadrların hazırlanması idi. Bu səbəbdən Bakı Dövlət Darülfünu, Kənd Təsərrüfatı İnstitutu və Dövlət Konservatoriyası kimi ali təhsil müəssisələrinin yaradılması məsələsi öndə dayanırdı. Lakin şərait elə gətirdi ki, bu layihələrdən yalnız biri – Bakı Dövlət Darülfünunun (Bakı Dövlət Universiteti) yaradılmasını reallaşdırmaq mümkün oldu. 1919-cu il avqustun 21-də AXC Parlamentində universitetin təsis edilməsi haqqında qanun layihəsinin ilkin müzakirəsi keçirildi. V.İ.Razumovski qeyd edirdi ki, "bu, Rəsulzadənin sayəsində, onun çalışqanlığı, maarifə köməyi ilə mümkün oldu".[2] 1919-cu il sentyabrın 1-də parlament "Bakı şəhərində dövlət universitetinin təsis edilməsi haqqında qanun"u son redaksiyada qəbul etdi.[3] Universitet Şurasının 1919-cu il noyabrın 10-da olan ilk iclasında professorların və digər akademik heyətin tərkibi təsdiq edildi. Nəhayət, gərgin hazırlıq işlərindən sonra 1919-cu il noyabrın 15-də, şənbə günü universitetdə birinci dərs günü elan edildi. Bu xəbər xalq, o cümlədən ziyalılar, ictimai-siyasi xadimlər arasında böyük sevinclə qarşılandı. Azərbaycan bununla özünün ilk ali təhsil ocağını yaratmış oldu.

**«Nəticədə»** əsas elmi nəticələr ümumiləşdirilmiş, rusdilli təhsil ocaqlarının xalq maarifinin inkişafında mühüm rolu qeyd edilmişdir.

---

[1] Азербайджанская Демократическая Республика (1918-1920). Законадательные акты (Сборник документов), с. 100

[2] Atakişiyev A.M. Bakı Dövlət Universitetinin tarixi. Bakı, 1991, s. 85

[3] Азербайджанская Демократическая Республика (1918-1920). Законадательные акты (Сборник документов), с. 101-103

**Dissertasiyanın əsas məzmunu müəllifin nəşr olunmuş aşağıdakı məqalələrində öz əksini tapmışdır:**

1. «Azərbaycanda Xalq Cümhuriyyəti dövründə rusdilli təhsil». //Tarix və onun problemləri. Bakı, 2010, №4, səh. 68 - 76
2. «Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinə dair». //GDU. Elmi Xəbərlər. Gəncə, 2010, № 2, səh. 82 – 87
3. «XIX əsrin sonlarında Azərbaycanda yeni tipli rusdilli məktəblərin vəziyyəti». //Azərbaycanşünaslığın aktual problemləri. Ümummilli Lider H.Əliyevin anadan olmasının 88-ci ildönümünə həsr olunmuş II Beynəlxalq elmi konfransın materialları, I hissə. Bakı-Gəncə, 2011, səh. 319 -327
4. «Hacı Zeynalabdin Tağıyevin qız məktəbi». //Tarix və onun problemləri. Bakı, 2011, №2, səh. 60 - 67
5. «Çar Rusiyasının Şimali Azərbaycanda yürütdüyü təhsil siyasətinə dair(XIX yüzilliyin 20-60-cı illəri)». //Tarix və onun problemləri. Bakı, 2011, №4, səh. 37-44
6. «XIX əsrin II yarısında ümumtəhsil məktəbləri nəzdində kənd təsərrüfatı və sənət şöbələrinin açılması». //Tarix və onun problemləri. Bakı, 2012, №1,səh. 26-33
7. «Азербайджанское отделение Горийской Семинарии» //"Гилея: научный вестник". Учителей Национальный Педагогический Университет им. М.П..Драгоманова. Украинская Академия Наук. Научное издание. Сборник научных работ. Киев, 2013, выпуск 68 (№1), səh.188-192
8. «Russian language education in Azerbaijan at the beginning of XX century». //Международный научный журнал. Кавказ и Мир Тбилиси, 2013, №16, səh.100-107

**Г.А.Алиева**

## РУССКОЯЗЫЧНАЯ СИСТЕМА ОБРАЗОВАНИЯ В СЕВЕРНОМ АЗЕРБАЙДЖАНЕ В КОНЦЕ XIX - НАЧАЛЕ XX ВЕКОВ

### РЕЗЮМЕ

Объектом данного исследования является формирование русскоязычного образования, являющегося составной частью внедряемой в XIX и в начале XX веков политики русификации, начатой после оккупации Российской империей Северного Азербайджана. Во введении обоснована актуальность темы, определены цель и задачи диссертации, указаны хронологические рамки, подчеркнуты ее научное новшество и практическая значимость, проанализирована историография, классифицированы основные источники.

В первой главе основное внимание уделено вопросам служения русскоязычной системы образования политике подготовки преданных кадров для колониального режима, а также исследовано открытие мусульманских школ нового типа, повествуется об открытии первых русскоязычных государственных школ - уездных, начальных и девичьих, в том числе о политике русификации в сфере образования, и о ее постепенном усилении и расширении.

Вторая глава диссертации исследует нововведения в системе русскоязычного образования, связанные с развитием капиталистических отношений в 60-90-х годах XIX века. В этой части работы рассматриваются вопросы открытия в составе общеобразовательных школ отделов сельского хозяйства и ремесла, русско-татарских школ нового типа, дающих среднее образование первых реальных школ и гимназий, школ художественного искусства и музыкальных школ, Горийской Семинарии Учителей и ее азербайджанского отдела, расширение существующей сети общеобразовательных учреждений.

В третьей главе повествуется о значимых изменениях в русскоязычной системе образования в Северном Азербайджане в начале XX века. В этой части исследованы вопросы, касающиеся роли интеллигенции в развитии образования в Северном Азербайджане в начале XX века, открытие девичьей школы Г.З.Тагиева и учительских семинарий, состояние русскоязычного образования в период Азербайджанской Демократической Республики и создание Бакинского Государственного Университета.

В заключении подведены итоги исследовательской работы, указаны основные и научные результаты.

**G.A.Aliyeva**

# RUSSIAN LANGUAGE EDUCATION IN NORTHERN AZERBAIJAN IN XIX-XX CETURIES

## SUMMARY


The process of formation and functioning of the Russian education system comprising an integral part of the russification policies imposed in XIX and the beginning of XX century following the occupation of Northern Azerbaijan by Russian empire in early XIX century constitutes the main object of this research.

The introductory part elaborates on the actuality of the topic, defines the goals and objectives, establishes the chronological framework, demonstrates the scientific novelty and practical significance, analyses the historiography as well as classifies the main sources of the work.

The first chapter of the dissertation brings attention to the Russian language education as the means for building the capacities of the human resources committed to the colonial regime as well as the situation of the traditional national-religious education, investigates the launch of the muslim schools of new type, discusses the opening of the first Russian language public schools (district, primary and girls' schools), the russification policies in education as well as gradual expansion of Russian education system.

The second chapter explores the innovations introduced to the Russian language education following the respective developments of capitalist relations in 60-90s years of XIX century. This section mainly examines the opening of agricultural and trade departments at the general education schools, the launch of the Russian-Azerbaijan schools of new type, first real schools and gymnasiums of secondary education, art and music schools, Qori Teacher's Seminary and its Azerbaijani department as well as elaborates on the process of expansion of the existing educational institutions.

The third chapter mainly focuses on the significant alterations taking place in Russian language education in Northern Azerbaijan in early XX century. This section investigates the role of intellectuals in the development of education in Northern Azerbaijan in early XX century, H.Z.Tagiyev's girls' school and the launch of new teachers' seminaries, situation of education during Azerbaijan Democratic Republic as well as the opening of Baku State University.

The summary of the research as well as the main academic results are presented in the conclusions.

**Kağız  formatı 60x84 1/16**

**Tiraj 100**

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

***На правах рукописи***

**ГЮЛАРА АЛВАН кызы АЛИЕВА**

# РУССКОЯЗЫЧНОЕ ОБРАЗОВАНИЕ В СЕВЕРНОМ АЗЕРБАЙДЖАНЕ В XIX – НАЧАЛЕ XX ВЕКОВ

**Специальность: 5503.02 – Отечественная история**

**А В Т О Р Е Ф Е Р А Т**

**Диссертации на соискание ученой степени**
**доктора философии по истории**

**БАКУ – 2014**